Qarabağ dirçəliş yolundadır

# “İlham Əliyev həyatımızda ən müqəddəs dövrün müəllifinə çevrildi”

## Ağdamlılar yenidən qurulacaq yurd yerlərinə qovuşacaqları günü böyük inamla gözləyirlər







*- Düz 27 ildir ki, bu günü gözləyirdik. Ürəyimiz yansa da, vətəndə qəribçiliyin ağır yükünü çəksək də, ümidimizi bir gün də itirmədik. İnanırdıq ki, bir gün o torpaqlara geri dönəcəyik...*

*83 yaşım var, yalan danışa bilmərəm. Aprel döyüşlərindən sonra əmin oldum ki, bütün vədlərinə əməl edən İlham Əliyev gec-tez Qarabağı işğaldan azad edəcək. Əcəl imkan versə, mən də qayıdacam yurduma. Yox, əgər mən qayıda bilməsəm də, balalarım, nəvə-nəticələrim qayıdar. Əsas odur ki, bu günü gördüm. Bu xoş günü mənə yaşadan Ali Baş Komandanımıza min alqış olsun. Allah İlham Əliyevi qorusun...*

### “İlham Əliyev xəyallarımızı gerçəkləşdirdi, Allah onu arzularına çatdırsın”

Ağdamın Quzanlı qəsəbəsində məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı Bənövşələr qəsəbəsindəyik. 1993-cü ildə Ağdamın Əliağalı kəndindən didərgin düşmüş Hümbətovlar ailəsinin qonağıyıq.

Evin ağsaqqalı 83 yaşlı Saleh Hümbətov səbirsizliklə doğulduğu kəndə qayıdacağı günü gözləyir. 1993-cü ilə qədər Əliağalı kəndində Mirzə Fətəli Axundov adına üzümçülük sovxozunda işləyən ağsaqqal bü günlərdə televiziya kanallarında kəndlərindən çəkilən videogörüntüləri izlədikdən sonra ürəyi parça-parça olub. Ermənilər Ağdamın digər kəndləri kimi ən səfalı yurdları olan Əliağalıda da daşı-daş üstə qoymayıblar:

“İnanın ki, o görüntülər bağrımı yardı. Çox sarsıldım. Deyirdim ki, bəlkə kəndimizdə böyük dağıntı olmaz. Bizim kəndimiz Ağdamın ən gözəl, ən səfalı kəndi idi. Dağlardan axan Xaçın çayı kəndimizdən keçirdi. İlin bu vaxtı kənddə hər tərəf yaşıl örpəyə bürünməyə başlayırdı. Heyvanlar dağlarda-dərələrdə otlayırdı. O yurdda o qədər gözəl xatirələrimiz var ki, hansından danışım, bilmirəm. Biz təkcə kəndimizdə evimizin tikilməyini gözləmirik. Bizi ora aparan hisslərimiz, duyğularımız və xatirələrimizdir.

İndi gəlib sorğu aparırlar ki, kəndinizə qayıtmaq istəyirsinizmi? Deyirəm ki, icazə verin bu yaşımda elə bu gün ayaqyalın gedim kəndimə...”

Doğulduğu torpağa qovuşmaq üçün Tanrıdan ömür payı istəyən Saleh kişinin həyat yoldaşı Zümrüd nənə isə Qalaycılar kəndindən Əliağalı kəndinə gəlin köçüb. Ağbirçək deyir ki, gecə-gündüz Prezident İlham Əliyevə alqış edir, amma nə qədər etsə də yenə azdır:

- Bala, Tanrı bizim taleyimizə bunu yazıbmış. Məcburi köçkünlük kimi qismətsiz bəxtimiz oldu. Bunun nə demək olduğunu Vətəndə vətənsiz yaşamağın ağrı-acısını çəkənlər bilər. Amma zaman yetişdi. Arzuladığımız günlər gəldi. İlham oğlum bizim xəyallarımızı çin elədi, Allah onu arzularına çatdırsın. Hər zaman qayğımıza qalan Mehriban xanıma Allah uzun ömür versin. Mən artıq ömrümü yaşamışam. Bundan sonra balalarımın, nəvələrimin Ağdamda xoş gün keçirəcəyi günlərə görə sevinirəm. İnanıram ki, İlham Əliyev Qarabağı necə azad etdisə, eləcə də onu yenidən quracaq. Ağdamı da gözəlləşdirəcək”.

Saleh kişinin oğlu Fehruz Hümbətov da səbirsizlənir. Deyir ki, uşaqlıq illəri həmin kənddə keçib: “İndi yenidən qayıtmaq imkanımız yaranıb. Doğulduğumuz torpaq bizi çəkib aparır oraya. Xaçın çayı kəndimizdən keçirdi. Orada olan balığın dadını indiyə kimi heç tapmamışam. Bu daddı məni ora aparan. Hər bir kəsin xəyalı var, yaddaşında qalan izlər var. Həmin izlərdi bizi çağıran. Əcdadlarımızın ruhlarıdı bizi Əliağalıya çəkən...”

### “Prezidentimizə inanırıq, güvənirik”

27 il öncə Ağdamın Qızıllı-Kəngərli kəndindən didərgin düşən Faiq Muxtarov və həyat yoldaşı Esmira xanım da doğma yurda qayıdış gününü səbirsizliklə gözləyirlər. Faiq kişi köçkünlük dövründən öncə Ağdam tikinti materialları kombinatında mühasib işləyib. Esmira xanımı kəndlərinə Şuşadan gəlin gətirib. 3 övlad böyüdüblər.

Faiq Muxtarov deyir ki, köçkünlük dövründə iki şəhərcikdə yaşayıb. Amma onlardan yaddaşında bir xatirə də qalmayıb. Kəndlərini isə hər həftə yuxuda görür: “On il Bərdə-Yevlax yolunun kənarındakı çadır şəhərciyində yaşamışıq. İndi də on ildən çoxdur ki, Quzanlıdakı Bənövşələr qəsəbəsində məskunlaşmışıq. Hərdən maşınla çadır şəhərciyi olan ərazidən ötəndə xatırlayıram ki, burada günlərimiz keçib. Burada yaşamağımızı xəyalımdan belə keçirmirəm. Amma 27 il öncə tərk etdiyim kəndimizi hər həftə yuxuda görürəm. Bu, yurda bağlılıqdı. Xatirələrdə elə hiss var ki, onu əvəz etmək olmur. Hər kəsə doğulduğu yurd əzizdir. Var olsun bunu bizə qaytaran Prezidentimiz və müzəffər ordumuz!”

Faiq kişinin sözlərinə görə, Qızıllı-Kəngərli kəndi Ağdamın ən gözəl kəndlərindən biri olub. Kənddə iki böyük tarixi abidə var. Başı Kəsik Türbənin olduğu ərazidəki qədim qəbiristanlıqda olan məzarlar burada qədim türk tayfalarının yaşadığını sübut edir.

Ağdam işğaldan azad edildikdən sonra ağsaqqal kəndlərinə də baş çəkə bilib. Deyir ki, ermənilər Qızıllı-Kəngərlini viran qoyublar: “Uzaqdan baxdım, sanki kənd bizdən küsmüş kimi idi. Əvvəlki gözoxşayan daşlar, ağaclar hamısı solğun görünürdü. Küskünlük kimi qəbul etdim. Ermənilər kəndi dağıdıblar. Amma bu da olub keçəcək. Çünki İlham Əliyev dedi ki, necə tez bir zamanda Qarabağı azad etdiksə, eləcə də tez vaxtda bərpa edəcəyik. Biz də Prezidentimizə inanırıq, güvənirik. Vətən hər kəs üçün əzizdir. Biz 27 il idi ki, vətəndə vətənsiz idik. Şükürlər olsun ki, bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu bu həsrətə son qoydu. Fəxr edirik. Hər birimizin arzusu torpaqlarımıza geri dönməkdir. Artıq müharibə bitib və İlham Əliyev Qarabağda tikinti-quruculuq işlərinə başlayıb. Tezliklə yollar da çəkiləcək, ərazilərimiz minalardan təmizlənəcək və şəhərlər, kəndlər yenidən qurulacaq. Hər kəs yurduna dönəcək. Allah Prezidentimizin canını sağ eləsin, ona ömür versin ki, Azərbaycanın inkişafı ilə bağlı bütün planlarını reallaşdıra bilsin”.

### “Orada uşaqlığım, ən əziz illərim keçib”

Qonağı olduğumuz İbrahimovlar ailəsi isə əslən Ağdamın işğaldan azad edilmiş Qalaycılar kəndindəndirlər. Ev sahibi 60 yaşlı Fikrət İmanov kənddən çıxarkən 33 yaşı varmış. İki azyaşlı uşaqla yurdundan didərgin düşən Fikrət kişi indi çox sevinclidir. Həm də ona görə ki, 33 yaşlı oğlu Tural Vətən müharibəsində Ağdamın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Ali Baş Komandan İlham Əliyev tərəfindən “Cəsur döyüşçü” və “Ağdamın azad olunmasına görə” medalları ilə təltif edilib.

2007-ci ildən ordu sıralarında çavuş kimi xidmət edən Tural indi atası ilə hərdən zarafat da edir. Deyir ki, ata, sən 33 yaşında olarkən bizi kəndimizdən götürüb çıxdın, mən isə 33 yaşımda sizi geri qaytarıram:

“Çox sevincliyik. Uzun ayrılıqdan sonra həsrətimiz bitdi. Ali Baş Komandanımız bizə bu xoş günləri yaşatdı. Bəzən inanmağımız gəlmirdi ki, torpaqlarımıza nə zamansa geri dönəcəyik. Orada uşaqlığım, ən əziz illərim keçib. İndi o xoş xatirələrim gerçəkliyə çevrilir, geri qayıdırıq. Özü də bu torpaqlar uğrunda savaşan igid oğlumla geri qayıdıram. Oğlum Tural top komandiridir. İkinci Qarabağ müharibəsi başlayan gündən Ağdam istiqamətindəki hərbi artilleriya qüvvələrimizin tərkibində xidmət edib. Oktyabr ayının 8-də yanlarına düşən top mərmisindən ağır yaralanıb. 34 qəlpə yarası alıb. Həkimlər sağ olsunlar, Turalı həyatda saxlamağa nail oldular. Hazırda bədəninin müxtəlif nahiyələrində 12 qəlpə var. Onlar da tədricən çıxarılacaq. Şükürlər olsun ki, övladım sağ-salamatdı. Bu gün onunla fəxr edirəm”.

Tural artıq ordu sıralarından tərxis olunub. Amma deyir ki, hər an hərbi formasını geyinib Vətən üçün döyüşməyə hazırdı. Doğma kəndlərindən çıxarkən 6 yaşı olan Tural indi 3 övladı ilə yurda dönməyi planlaşdırır.

Bu gün İbrahimovlar ailəsinin hər bir üzvü Qalaycılar kəndinə qayıtmağa hazırlaşırlar. İndi onlar Prezident İlham Əliyevdən doğma yurdlarına qayıdış günü ilə bağlı xoş xəbər gözləyirlər.

### Ağdam yenidən gülüstana çevriləcək

Qəsəbədə olarkən şahidlik etdiyimiz mənzərə həqiqətən də insanı qürurlandırır. Bu bahar Ağdama bir başqa gözəllik, bir başqa bar-bərəkətlə qədəm qoyub. Doğma Qarabağımızda yenidən çal-çağırlı günlər başlayıb. Azadlığına qovuşan Ağdamda qələbə tonqalları qalanır.

İlham Əliyevin işğaldan azad etdiyi Ağdamda illərdən sonra Novruz bayramının qeyd edilməsi də böyük məna kəsb edir. Çünki düşmən tapdağından azad edilən Ağdamda yeni həyat canlanır.

Artıq məşəqqətli günlər bitdi. Ağdam yenidən qurulacaq və həmişəki kimi gülüstana çevriləcək. İlham Əliyev Qarabağı 44 günə necə düşmən tapdağından təmizlədisə, eləcə də bu torpaqları dirçəldəcək, kəndlər, şəhərlər yenidən qurulacaq və Qarabağda həyat canlanacaq.

İllərdir məşəqqətlərə düçar olub, həyatlarını sıfırdan qurmağa məcbur qalan, respublikanın 62 şəhər və rayonunda yataqxanalarda, yarımçıq tikililərdə məskunlaşan ağdamlılar indi sevinc içərisində böyük qayıdış gününü gözləyirlər.

*Rəşad BAXŞƏLİYEV,*
*“Azərbaycan”*